# YAP rayon təşkilatının yaranmasının 32-ci ildönümü

**Tərtər Rayon İcra Hakimiyyətinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə YAP Tərtər Rayon Təşkilatının yaranmasının 32-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, YAP rayon təşkilatının sədri Eldar Əsədov, idarə, müəssisə, təşkilat rəhbərləri, İƏD üzrə nümayəndələr, ərazi partiya təşkilat sədrləri, partiya veteranları və fəalları iştirak ediblər.**



Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Mərkəzi Meydanda ucaldılmış abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzərək xatirəsini ehtiramla anıblar.

YAP rayon təşkilatının inzibati binasında davam etdirən tədbirdə icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov rayon təşkilatının üzvlərini səmimi, qəlbdən təbrik edərək onlara işlərində uğurlar arzulayıb. Bildirib ki, Yeni Azərbaycan Partiyasının ölkəmiz üçün çətin tarixi dövrdə yaranması heç kim üçün sirr deyil. Ötən 32 il ərzində partiyanın bugünkü inkişafının böyük səylərin, qətiyyətin nəticəsi olduğunu böyük əminliklə qeyd edə bilərik. Partiya sıralarında bütün kateqoriyadan olan insanların təmsil olunması isə onu deməyə əsas verir ki, YAP xalqın partiyasıdır.

İcra başçısı o dövrdəki ictimai-siyasi durumdan, Azərbaycanın vətənpərvər və ziyalı insanlarının nicat yolunu Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdüklərindən, onların Ulu öndərə müraciət ünvanlamalarından, müraciəti ünvanlayan məşhur "91-lər"in öz tarixi missiyalarını şərəflə yerinə yetirmələrindən danışıb. Bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsindən 7 ay sonra YAP-ın iqtidar partiyasına çevrildiyini, Yeni Azərbaycan Partiyası təsis olunduqdan 8 ay sonra isə - 25 iyul 1993-cü il tarixdə rayonumuzda partiyanın ilk təşkilatının yarandığını qeyd edib.

Vurğulanıb ki, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik və idarəetmə prinsiplərinə söykənərək müstəqil dövlətimizin qurulması yolunda çoxşaxəli fəaliyyət göstərib. Bu gün Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş inkişaf siyasəti partiyamızın sədri, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə YAP rayon təşkilatının sədri Eldar Əsədov, veteranlar Zakir Bağırov, Kərrar Bayramov və başqaları çıxış ediblər. Sonda YAP rayon təşkilatı tərəfindən rayonun ictimai-siyasi həyatında göstərdikləri xidmətlərə görə bir qrup partiya fəalına fəxri fərmanlar və hədiyyələr, YAP sıralarına yeni daxil olmuş üzvlərə isə vəsiqələr təqdim edilib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika.- 2025.- 25 iyul (№ 152).- S.5.